©2020 Контент достъпен според лицензията CC BY-NC 4.0
This is an open access article under the CC BY-NC 4.0 license
(https://creativecommons.org/licenses/by-nc/4.0/)



UDC 316
DOI: 10.34671/SCH.HBR.2020.0404.0006

## YARADICILIQDA İNTUİTİV KOMPONENTLƏR

© 2020

**Əliyeva Gülşen Fazil**, Siyasi Elmlər və Sosiologiya kafedrasının müəllimi
*Bakı Dövlət Universitet*
*(1148, Azərbaycan, Bakı, Z.Xəlilov 23, e-mail: g.mammadova@list.ru)*

**Xülasə**. Təbiəti etibarilə yaradıcı xarakterə malik olan insan idrakı daim yeni problemlərin aşkarlanmasına yönəlməklə onların həllində ənənəvi vasitələrdən əlavə standart olmayan üsullardan da istifadə edir. Bu baxımdan yaradıcılıq daimi və təkrarolunmaz proses kimi mənalanır. Son dövrdə insanın yaradıcılıq fəaliyyətini tədqiq edən yeni bilik sferasının (evristikanın) təzahürü də təsadüfi deyildir. Bu elm, yaradıcılığı insanın gerçəkliyi öz məqsədləri və tələbatlarına uyğun surətdə dəyişdirməyə istiqamətlənən fəaliyyət kimi qiymətləndirir. Yaradıcılığın ən ilkin mərhələsi isə mövcud tələbatın dərk olunması ilə problemin irəli sürülməsi təşəbbüsüdür. Qeyd etmək lazımdır ki, insanın yaradıcılıq prosesi subyektin təxəyyülü və fantaziyasından kənarda mövcud deyildir. Bu keyfiyyətlərdən məhrum olan insanın yaradıcı təfəkkürə malik olması ağlasığmazdır. Çünki belə adam digər insanların əhəmiyyət vermədikləri faktları mövcud olan qeyri-adiliyi sezmək qabiliyyətindən uzaqdır. Yaradıcılıq prosesi digər amillərlə də şərtlənir. Məsələn, güclü müşahidə qabiliyyətinə malik olmaq yaradıcılıq prosesinə özünəməxsus təkan verir. Yüksək emosional vəziyyət və eləcə də güclü intuitiv həssaslıq insanın beynində onu düşündürən anlayışların effektiv təkrarlanmasına müsbət təsir göstərir. Həmin prosesdə hiss üzvlərinin funksional fəallığı güclənir və bunun sayəsində qavrayış, təfəkkür və hafizə xeyli dərəcədə qüvvətlənir. Bunlar bütövlükdə ilhamlı yaradıcılığın zirvə səviyyəsini yaradan orijinal ideyaların, kəşflərin təzahürünə imkan yaradır.

**Açar sözlər**: yaradıcı intuisiya, problemin sosioloji, fəlsəfi, psixoloji tərəfləri, intuisiyanın mahiyyəti və ifadə formaları.

## INTUITIVE COMPONENTS IN CREATIVITY

© 2020

**Aliyeva Gulshen Fazil**, Lecturer, Department of Political Science and Sociology
*Baku State University*
*(1148, Azerbaijan, Baku, Z.Khalilov 23, e-mail: g.mammadova@list.ru)*

**Abstract**. Human cognition, which is creative in nature, is constantly focused on the discovery of new problems and uses non-standard methods in addition to the traditional means of solving them. From this point of view, creativity is understood as a constant and unique process. It is no coincidence that a new area of knowledge (heuristics) has recently emerged that studies human creative activity. This science evaluates creativity as an activity aimed at changing the reality of a person in accordance with his goals and needs. The first stage of creativity is an initiative to raise the problem with an understanding of existing needs. It should be noted that the creative process of a person does not exist outside the imagination of the subject. It is inconceivable that a person devoid of these qualities would have a creative mind. Because such a person is far from realizing the strangeness of facts that do not bother others. The creative process is driven by other factors. For example, the ability to observe gives a special boost to the creative process. A high emotional state, as well as a strong intuitive sensitivity, have a positive effect on the effective repetition in the human brain of concepts that make him think. In this process, the functional activity of the sense organs is enhanced, as a result of which perception, thinking and memory are significantly strengthened. All this allows you to embody original ideas and discoveries that create a peak of inspiring creativity in general.

**Keywords**: creative intuition, sociological, philosophical, psychological aspects of the problem, the essence of intuition and forms of expression.

## ИНТУИТИВНЫЕ КОМПОНЕНТЫ В ТВОРЧЕСТВЕ

© 2020

**Алиева Гюльшен Фазиль кызы,** преподаватель кафедры политологии и социологии
*Бакинский государственный университет*
*(1148, Азербайджан, Баку, З.Халилова 23, e-mail: g.mammadova@list.ru)*

**Аннотация**. Человеческое познание, носящее творческий характер, постоянно ориентировано на открытие новых проблем и использует нестандартные методы в дополнение к традиционным средствам их решения. С этой точки зрения творчество понимается как постоянный и уникальный процесс. Не случайно в последнее время возникла новая область знаний (эвристика), изучающая творческую деятельность человека. Эта наука оценивает творчество как деятельность, направленную на изменение реальности человека в соответствии с его целями и потребностями. Первый этап творчества – это инициатива поднять проблему с пониманием существующих потребностей. Следует отметить, что творческий процесс человека не существует вне воображения испытуемого. Немыслимо, чтобы у человека, лишенного этих качеств, был творческий ум. Потому что такой человек далек от того, чтобы осознавать странность фактов, которые не волнуют других. Творческий процесс обусловлен другими факторами. Например, способность наблюдать дает особый импульс творческому процессу. Высокое эмоциональное состояние, а также сильная интуитивная чувствительность положительно влияют на эффективное повторение в мозгу человека понятий, заставляющих его думать. В этом процессе усиливается функциональная активность органов чувств, в результате чего значительно укрепляются восприятие, мышление и память. Все это позволяет воплощать оригинальные идеи и открытия, которые создают пик вдохновляющего творчества в целом.

**Ключевые слова**: творческая интуиция, социологический, философский, психологический аспекты проблемы, сущность интуиции и формы выражения.

Yaradıcılığa yaradıcı intuisiyanın ən geniş təzahür etdiyi sahə kimi baxmaq lazımdır. Yaradıcılıqdan danışarkən ilk növbədə "yaradıcılıq" və "məhsuldarlıq" anlayışlarını ayırmağı məqsədəuyğun hesab edirik. Bu baxımdan K.V. Teylor və J.Hollandın fikirləri problemin mahiyyətini yaxşı açır: "Yaradıcılığı məhsuldarlıqdan ayırmaq lazımdır, çünki məhsuldarlıq kəmiyyəti əhatə edir və yaradıcılıq xüsusi yüksək keyfiyyəti ehtiva edir" [1, s.7]. Qeyd etmək lazımdır ki, məhsuldar bir alim yüksək yaradıcılıq potensialına malik olmaya bilər, yəni başqalarının söylədiyi çox dəyərli fikir və fikirləri sistemləşdirmək və inkişaf etdirmək yaxşıdır. Yüksək yaradıcılıq potensialına sahib bir alim öz növbəsində çox az əsər yaza bilər, yəni daha az məhsuldar ola bilər. Məsələn, A. Einstein, N. Bohr, Louis de Broy və başqaları. nisbətən az sənəd yazdı. Bəzi hallarda yaradıcılıq və məhsuldarlıq üstüstə düşür [2, s.128].

Yaradıcılıq intuisiyanın ən geniş şəkildə aşkarlandığı sfera kimi onu nəzərdən keçirək. Yaradıcılıq barədə danışarkən

©2020 Контент достъпен според лицензията CC BY-NC 4.0
This is an open access article under the CC BY-NC 4.0 license
(https://creativecommons.org/licenses/by-nc/4.0/)

isə ilk əvvəl «yaradıcılıq» və «məhsuldarlıq» anlayışlarının bir-birindən fərqləndirilməsini məqsədəuyğun hesab edirik. Bu baxımdan K.V.Teylor və C.Holandın fikri məsələnin mahiyyətini yaxşı açır: «Yaradıcılığı məhsuldarlıqdan fərqləndirmək lazımdır, belə ki, məhsuldarlıq özündə kəmiyyəti yaradıcılıq isə xüsusi yüksək keyfiyyəti ehtiva edir» [1, p.7].

Qeyd etmək lazımdır ki, məhsuldar alim yüksək yaradıcı imkanlara malik olmaya da bilər, yəni o, digərlərinin söylədiyi çox qiymətli ideyaları, fikirləri yaxşı sistemləşdirə və inkişaf etdirə bilər. Yüksək yaradıcı imkanlara malik olan alim də öz növbəsində çox az əsər yaza bilər, başqa sözlə, az məhsuldar olar. Məsələn, A.Eynşteyn, N.Bor, Lui de Broylə s. nisbətən az əsər yazıblar. Bəzi hallarda isə yaradıcılıq və məhsuldarlıq üst-üstə düşür [2, c.128].

Poetik və elmi yaradıcılığın mənbəini araşdıran Platon özünün bəzi dialoqlarında (“İon”, “Ziyafət” və s.) belə bir nəticəyə gəlib çıxır ki, o, qeyri-şüuri xarakter daşıyır, ilhamdan qaynaqlanır və soyuq əqli təfəkkürlə heç bir əlaqəsi yoxdur. Filosofun fikrincə, şairlər ən yaxşı əsərlərini dumanlanmış şüur halında yazırlar və bu səbəbdən də, öz yaradıcılıqlarını şərh etmək iqtidarında olmurlar. İdealistik fəlsəfəsinin ruhuna uyğun olaraq, Platon belə bir fikri təsdiqləyirdi ki, əslində, tanrı insanlardan bəzilərini özünüifadə üçün alət kimi seçir. Hər bir halda Platon yaradıcılıq prosesində qeyri-şüuri məqamın varlığı faktından çıxış edir. Bu məqam “Menon” dialoqunda da ətraflı müzakirə olunur. Platonda qeyri-şüurilik əvvəllər (ideyalar aləmində olanda) qazanılan biliklərin məcmusu kimi bilinir.

Qeyd etməliyik ki, bu nöqteyi-nəzər təkcə antik fəlsəfə üçün deyil, bütün Şərq fəlsəfəsi üçün səciyyəvidir. Metampsixoz (reinkarnasiya, ruhların köçməsi) pifaqorçulara, Platona, Plotinə xas olduğu kimi qədim Hind filosoflarına da xas idi (yoqa sisteminə, Şankarın fəlsəfəsinə və s.). Aydındır ki, bütün bu hallarda söhbət keçmiş təcrübəyə arxalanan intuisiyadan gedir. Hind fəlsəfəsinə görə əvvəlki həyatlar barədə informasiya yalnız idraki baxımdan çox inkişaf etmiş adamlarda yetkin dövrlərinə yaxın dərk olunmağa başlayır. Digər insanlarda isə bu informasiyalar ağlın dərinliklərində gizli qalır.

Ümumiyyətlə, yaradıcılıq prosesini şərh etdikdə bir sıra mərhələri ayırmaq olar:

1) Hər hansı bir məsələnin və ya problemin yaranma, yaxud qarşıya çıxması;

2) Mövzunun subyekt tərəfindən qavranılması, problemin hansı vəziyyətdə olmasının təhlili.

3) Subyektin problemi həll etməyə çalışması. Bu istiqamətdə gedən təfəkkür prosesi, yeni ideyaların yaranması;

4) Həllin tapılması üçün qeyri-şüuri səviyyədə alınan nəticələrin qəflətən şüur səviyyəsinə keçməsi;

5) Həllin meydana gəlməsi və nəticənin qeydə alınması.

Yaradıcılıq mahiyyət etibarilə insan təfəkkürünün məhsuldar fəallığı kimi səciyyələnir və rasional fəaliyyətilə zidd deyildir. Təfəkkürün yaradıcı fəallığı insanların həyat – fəaliyyətinin iki başlıca sahəsində – maddi və mənəvi fəaliyyət prosesində reallaşır [3, c.27]. Əlbəttə yaradıcılıq həmin fəaliyyət sahələrində spesifik şəkildə təzahür edir. Məsələn təbiətşünaslıqda yaradıcılığın ən yüksək səviyyəsi kəşflərdir, eləcə də ixtiralar fəallığın məhsuludur. Yaradıcılığın bu iki forması axtarılan problemin həlli kimi səciyyələnir. Hər bir kəşf və ixtira köhnənin inkarı olmaqla yanaşı həm də yeninin yaradılmasıdır [4, c.49].

Ümumiyyətlə, yaradıcılıq prosesi nizamsız halda deyil, müəyyən məntiqi ardıcıllıqla təşəkkül tapır. Bəzən özünəməxsus proses kimi mənalanan yaradıcılıq prosesi heç bir məntiqi çərçivəyə sığmır və ondan kənara çıxa bilməsi ilə səciyyələnir. Təfəkkür prosesi yalnız yaradıcılıq sayəsində yeniləşmir. Bəzi hallarda insan uzun müddət ərzində həll etməyə qadir olmadığı bu və ya digər problemi ani olaraq dərindən başa düşür və onun düzgün həlli yolunu müəyyənləşdirir. Qəflətən gözlənilmədən təzahür edən bu keyfiyyət intuisiya adlanır [5, c.125].

Intuisiyada qeyri-şüurinin əhəmiyyətli rol oynaması onunla əlaqədardır ki, o azaddır, hərəkətində daha çox çeviklik təzahür etdirir. Intuisiya emosional-rasional prosesdir. Müxtəlif mütəfəkkirlər nurlanmanın rolunu dəfələrlə qeyd edərək belə qənaətə gəlmişlər ki, yaradıcılıq prosesinin ən məhsuldar dövrü ilhamagəlmə məqamıdır. Ilham müəyyən təmkinlilik, hisslərin intensiv təzahür etməsi, həyəcan, fikri fəaliyyətin yekununu irəlicədən görmək qabiliyyətini ifadə edən intellektual coşqunluq başa düşülür.

Bəzən belə bir düzgün olmayan fikrə təsadüf olunur ki, zəkanın əlamətini zəkanın işi deyil, hər hansı məntiqi düşüncə tərzindən kənar olan qeyri – şüuri mənəvi yüksəliş təşkil edir. Əslində isə hər cür yaradıcılıq və intuisiya zəkanın gərgin işinin tərkib hissəsidir. A.Puankarenin belə bir fikrini qeyd etmək yerinə düşər ki, yaradıcılıqda intuisiya şüuraltı ünsürlərlə və şüurlu proseslərlə müqayisədə daha çox yer tutur [3, c.90]. Fəlsəfi ədəbiyyatda qeyd olunduğu kimi, intuisiyanın fəlsəfi idrak sferasında əhəmiyyət kəsb etdiyini sübuta yetirən misallar az deyildir. Məsələn, Aristotelin sillogizm ideyası, R.Dekartın fəlsəfə ilə riyaziyyatı əlaqələndirmək ideyası, I.Kantın antinomiyaları məhz həmin qəbildəndir.Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, insan yeni biliyi həmişə yalnız məntiqi təfəkkürün köməyi ilə əldə etmir. Intuisiya məhz idraka nüfuz edən yol kimi dəyərləndirilməlidir.

Hisslər və mücərrəd təfəkkür kimi intuisiya da bütün insanlarda mövcuddur. Böyük ingilis filosofu Bertran Rassel belə nəticəyə gəlmişdi ki, müəyyən məqamlarda iradə gücünə yaradıcı işi irəlilətmək cəhdləri heç bir nəticə vermir. Belə məqamlarda bu filosof şüuraltı səviyyədə ideyaların yetişəcəyi anı səbrsizliklə gözləməyin zəruriliyinə inanırdı. «Mən kitab üzərində işləyərkən demək olar ki, hər gecə onu yuxuda görürəm» [4, c.17].

Intuisiyanın başlıca növlərindən biri məhz evristik (yaradıcı) intuisiyadır. Bu funksiya spesifik idrak prosesidir. Yaradıcı intuisiya mahiyyət etibarilə hissi obrazların və mücərrəd anlayışların qarşılıqlı təsirini ifadə etməklə yeni obrazların və anlayışların yaradılması ilə nəticələnir. Onların məzmununu əvvəlki qavrayışları sadəcə sintez etməklə və yaxud mövcud anlayışlarla məntiqi əməliyyatlar aparmaq yolu ilə hasil etmək mümkün deyildir

Intuisiyanın formalaşmasını və təzahürünü təmin edən ümumi amillər bunlardır:

1) insanın əsaslı peşə hazırlığına malik olması, problemi dərindən mənimsəməsi;

2) axtarışları əhatə edən şərait, problemlərin səviyyəsi;

3) problemi həll etmək üçün fasiləsiz və gərgin axtarışların olması;

4) yeni fikrin təşəkkülü

Intuisiya müəyyən mənada instinktiv xarakterə malikdir. O, eyni zamanda adi şüurdan yüksəkdə qərarlaşır. Belə bir ümumi fəlsəfi mövqe ilə razılaşmaq olar ki, intuisiya idraki qüdrəti baxımdan fövqəlşüur kimi qiymətləndirilə bilər. Intuisiya bircə anda barəsində düşünülən obyektin ünsürlərinə və hissələrinə nüfuz etmək və həmin obyektin mahiyyətini bütövlükdə əks etdirmək gücünə malikdir. A.Berqsonun qeyd etdiyi kimi intuisiya intellektin yarımkölgəsidir. Burada A.Spirkinin də belə bir ədalətli fikrini təsdiqləmək olar ki, intuisiya bir an içərisində obyektin bütöv bir tam kimi mahiyyətini əhatə edə bilir. Bu işi elə sürətlə görür ki, rasional məntiq ona çata bilmir [6, c.514].

Yaradıcılıqda intuitiv komponentlərin «dərk edilməsi» üçün intuisiyanın faydalı səciyyəvi əlamətlərinin müəyyənləşdirilməsi praktiki maraq kəsb edir. Və hazırda hissi və intellektual intusiyanın mahiyyətini neyrofizioloji üsullarla yanaşı sinergetik metoda əsaslanaraq da izah etməyə ciddi səy göstərilir [1, s.35].

Elmi idrak – çox mürəkkəb və bir çox cəhətdən hələ sirli qalan prosesdir. Elmi kəşflər necə baş verir? Alimlərin şüurunda yeni elmi ideyalar necə yaranır? Əksər hallarda müəlliflərin özləri də bunun necə və nə üçün baş verdiyini izah etmək iqtidarında olmurlar. Lakin alimlər öz yaradıcılıq proseslərinə münasibət bildirəndə istər-istəməz «güman», «nurhanma», «birdən ayılma» və s. kimi anlayış və ifadələrdən istifadə etməyə səy göstərirlər. Yeni elmi ideyaların yaranmasında ən mühüm, hətta həlledici rol oynayan amil

©2020 Контент достъпен според лицензията CC BY-NC 4.0
This is an open access article under the CC BY-NC 4.0 license
(https://creativecommons.org/licenses/by-nc/4.0/)



məhz intuisiyadır. Əgər intuisiya haqqında deyilən bütün fikirləri sistemləşdirsək, intuisiyanın, həqiqətən, hər sahədə və daimi mövcudluğu qənaətinə gəlmək olar. O, tədqiqatları istiqamətləndirir, empirik məlumatları açıqlayır, fundamental anlayışların və nəzəriyyələrin yaradılmasına səbəb olur, hipotezləri formalaşdırır, tədqiqat üçün effektiv üsul və metodlar seçiminin işlənməsini stimullaşdırır. Yeni elmi nəticələrə gətirib çıxaran idrak prosesinin hər bir sferası intuisiya ilə sıx bağlıdır. Hazırda elmi fəaliyyətlə məşğul olanların sayının tədricən artaraq cəmiyyətin daha çox hissəsini əhatə etməyə başlaması tamamilə qanunauyğun haldır. Elmin sürətlə kütləvi peşəyə çevrilməsi ilə yanaşı elmi kəşflər, yeni ideyalar daha mühüm əhəmiyyət kəsb edir. Zira postindustrial inkişaf ssenarisinə görə müasir cəmiyyət bilik cəmiyyətinə transformasiya olunur. Belə cəmiyyətdə əhalinin böyük hissəsi bilik "istehsalı" prosesində məşğulluq tapmalı, bu və ya digər formada hamı kreativliyini işə salmalıdır. Son nəticədə yaradıcı yanaşma bu gün əmək qüvvəsinin başlıca keyfiyyət göstəricisinə çevrilmişdir. Bu baxımdan intuisiyaya maraq da tamamilə başadüşüləndir.

Sovet məkanında sinif, xalq və kütlə kimi anlayışların uzun müddət ideoloji baxımdan yaradıcı şəxsiyyətə qarşı bir arqument kimi mənalandırılması təəssüf ki, cəmiyyətimizin ekzistensial fəzasında şəxsiyyətin yaradıcılıq üfüqlərinin daraldılmasına gətirib çıxarmışdır. Son nəticədə, maksimal elmilik iddiasında olan sovet marksizminin cəmiyyətə ünvanladığı mesaj hamıya aydın idi. Bu fəlsəfə insanı kütlədə əritmək istəyirdi, sovet insanı da bu imicdən kənara çıxmamağa çalışırdı. Hamı kimi olmaq, "palaza bürünüb elnən sürünmək", insanın inkişafı baxımından tamamilə qeyri-normal vəziyyət idi və bu hal dolayısı ilə insanların yaradıcılıq meyllərinin məhdudlaşmasına istiqamətlənmişdi. Elə buna görə də indi yaradıcılığa dair köhnəlmiş təsəv-vürlərin aradan qaldırılması həyati zərurətə çevrilir.

Bu baxımdan, formalaşmaqda olan təhsil sistemində yaradıcılıq məqamının rolunun artırılmasına da böyük ehtiyac hiss olunur. Hazırlanan mütəxəssislərin yaradıcı və xüsusi ilə intuitiv xüsusiyyətlərinin əhəmiyyəti də tədrisin gedişatında aktuallaşdırılmalı və vurğulanmalıdır. Zira intuisiya mexanizmi kifayət qədər ümumi xarakter daşıyır və praktiki olaraq insanların fəaliyyətinin bütün sferalarında nəzərə çarpır. Ən müxtəlif peşə və sənətlərdə, ən müxtəlif həyati situasiyalarda intuitiv komponentləri müşahidə etmək mümkündür. Bura təkcə bədii yaradıcılıq sferası aid deyildir. Hüquqşünas hakimdən yalnız qanunun «hər nöqtəsi»ni bilmək deyil, həmçinin onun mahiyyətini başa düşmək tələb edilir. Filologiyada intuisiya «dili hiss etmə» qabiliyyətini inkişaf etdirmək üçün zəruridir. Intuisiya tez-tez tibb sahəsində də təzahür edir; belə ki, həkim çox zaman «ilk baxışdan» diaqnozu düzgün təyin edə bilər. Lakin öz qərarını izah etməkdə çətinlik çəkə bilər. Beləliklə, sənətindən asılı olmayaraq hər bir insanın həyatında elə situasiyalara rast gəlmək mümkündür ki, burada mühüm qərarların qəbulu üçün informasiya və vaxt kifayət etməyəndə intuitiv mexanizmə ehtiyac duyulur [3, c.84].

R.M.Qranovskiy və I.Y.Bereznoyun «Intuisiya və süni intellekt» kitabında intuisiyaya yeni və konstruktiv baxış öz əksini tapır. Bu mövqeyə görə intuisiya insanın təsəvvürlərində dünyanın müxtəlif modellərinin qarşılıqlı təsirinin nəticəsi kimi səciyyələnir. Burada insan tərəfindən dərk edilmiş və ya şüuraltı daxili maneələrin aradan qaldırılması ilə bağlı olan yaradıcılığının inkişafı prosesində dünyanı sərbəst qavrayışı formalarından aparıb çıxarmasından bəhs edilir; intuisiyanın stimullaşdırması metodları şərh edilir.

A.C.Karmin və E.P.Xaykin isə «Elmdə yaradıcı intuisiya» kitabında yaradıcı intuisiyanın mahiyyətini təhlil etməyə çalışırlar [5, c.64]. Burada intuisiya xüsusi idraki tərəqqi kimi nəzərdən keçirilir. Bu idraki tərəqqinin mahiyyətini əyani obrazların və mücərrəd anlayşların özünəməxsus qarşılıqlı əlaqəsi təşkil edir. Karmin və Xaykinin tədqiqat işində intuisiyanın səciyyəvi əlamətləri, əsas növləri və təzahüretmə «mexanizmi» açıqlanır, bütövlükdə elmi idrakın inkişafında intuisiyanın rolunun müəyyənləşdirilməsinə cəhd göstərilir. Burada müəlliflər həmçinin intuisiya problеminin tarixi və məntiqi cəhətdən təkamülü məsələsinə də xüsusi diqqət yetirilir. Əlbəttə, tarixi-fəlsəfi ənənələri nəzərə almadan intuisiyanın mahiyyətinə dair baxışların təkamülünü öyrənmək qeyri-mümkündür [5, c.67].

Qeyd etdiyimiz kimi, intuisiyaya dair ilk fəlsəfi problematikanın əlamətləri Platon və Aristotelin təlimlərində nəzərdən keçirilir. Lakin burada intuitiv idrakın hissi mahiyyəti inkar olunur. Intuisiya abstrakt təfəkkür sahəsinə aid edilir. Bununla belə yeni dövr fəlsəfəsindən başlayaraq intuisiyanın idrakı fəaliyyətdə mühüm əhəmiyyəti tədricən etiraf olunmağa başlayır. Idraki metodlar probleminin elmə gətirilməsi, məlum lduğu kimi, F.Bekonun adı ilə bağlıdır. Onu belə bir sual düşündürürdü: gələcəyin elmi nəyə üstünlük verəcək: duyğuya, yoxsa əqlə və ya intuitiv mənada məntiqi mühakiməyə? Bekonun induktiv metodu işləyib hazırlaması intuisiya probleminin tarixi təkamülü üçün zəruri ilkin şərt idi. XVII əsrdə təbiətşünaslığın və riyaziyyatın sürətli inkişafı qnoseoloji problemlər yaratdı: elmdə ayrı-ayrı faktlardan ümumi və zəruri hökmlərə keçid, təbiətşünaslıqdan və riyaziyyatdan əldə olunan biliklərin mötəbərliyi, riyazi təhlil və aksiomların mahiyyəti və s. yeni elmi metotlara tələbatı artırdı. Elmi tədqiqat metotlarına olan maraq yalnız təbiətşünaslıq elmlərində deyil, eləcə də intellektual intuisiya nəzəriyyəsinin əks olunduğu fəlsəfi elmlərdə təzahür edirdi [7, c.69].

Yaradıcı intuisiyanın əlamətlərini səciyyələndirmək vacib və məqsədəuyğundur. Bu hər şeydən əvvəl, intuisiyanı insanın digər idraki fəaliyyət mexanizmlərindən fərqləndirmək üçün lazımdır. Həmin əlamətlər aşağdakılardır:

1) bilavasitə məntiqi nəticə çıxarma yolu ilə istənilən nəticənin əldə olunmasının prinsipcə mümkün olması;

2) hissi idrak vasitəsilə istənilən nəticənin əldə edilməsinin prinsipcə qeyri-mümkünlüyü;

3) qeyri-iradi olaraq nəticənin mütləq həqiqət kimi qəbul edilməsi (amma bu sonrakı məntiqi əməliyyatların və eksperimental yoxlamaların zəruriliyini aradan qaldırmır);

4) alınan nəticənin gözlənilməz xarakterə malik olması;

5) nəticənin bilavasitə göz qabağında olması;

6) ani olaraq qoyulmuş problemdən hazır nəticəyə gətirib çıxaran yaradıcılıq aktının mexanizmlərinin və metodlarının dərk edilməzliyi;

7) kəşfin çıxış nöqtəsindən başlayaraq keçilmiş yolun qeyri-adi dərəcədə asan və sadə olması;

8) intuisiya prosesinin reallaşmasından və alınmış nəticədən yaranan məmnunluq hissinin aydın ifadəsi.

Beləliklə, intuitiv olaraq baş verən hər şey qəflətən, gözlənilmədən, qeyri-ixtiyari olaraq sürətlə, asanlıqla, məntiqdən və müşahidədən kənar baş verməlidir, lakin bununla belə özü-özlüyündə hissi təcrübəyə əsaslanmalı və qanunauyğunluq kəsb etməlidir. Intuisiya formalarının təsnifatı ilə bağlı tədqiqatçılar çox zaman M.Bunqenin təklif etdiyi təsnifata əsaslanırlar. Bunqe hər şeydən əvvəl hissi və intellektual intuisiyanı bir-birindən fərqləndirməyə səy göstərir. Onun fikrincə, hissi intuisiyanın aşağıdakı formaları var [8].

I. Intuisiya qavrayış kimi:

1) intuisiya predmetin, hadisənin və ya əlamətin tez eyniləşdirilməsi prosesində təzahür edən qavrayış kimi;

2) predmet, hadisə və ya əlamətin mənasının və onlar arasındakı qarşılıqlı əlaqənin aydın şəkildə dərk edilməsi formasında;

3) şərh etmə bacarığı.

II. Intusiya təxəyyül kimi:

1) təsvir etmə bacarığı və ya həndəsi intuisiya;

2) metafora yaratma bacarığı: müxtəlif obyektlərdə əlamət və funksiyaların qismən bənzərliyini və ya tam formal və struktur oxşarlığını göstərmək bacarığı.

3) yaradıcı təxəyyül.

Bunqe intellektual intuisiyanın aşağıdakı təsnifatını təklif edir:

III. Intuisiya əql kimi:

1) sürətli əqli nəticə çıxartma - bir müddəadan digərinə ani keçid;

2) sintez etmə bacarığı və ya ümümiləşdirilmiş qavrayış;

©2020 Контент достъпен според лицензията CC BY-NC 4.0
This is an open access article under the CC BY-NC 4.0 license
(https://creativecommons.org/licenses/by-nc/4.0/)

3) sağlam düşüncə - xüsusi bilik və metodlara deyil, adi biliklərə əsalanan və ya elmi biliyin keçilmiş mərhələləri ilə məhdudlaşan hökm.

IV. Intuisiya qiymətləndirmə kimi:

1) sağlam fikir, gözüaçıqlıq və ya nüfuzetmə: problemin əhəmiyətini, nəzəriyyənin həqiqətə uyğunluğunu, metodun münasibliyini və fəaliyyətin səmərəliliyini tez və düzgün qiymətləndirmək bacarığı;

2) intellektual intuisiya adi təfəkkür tərzi kimi.

Bunqenin irəli sürdüyü təsnifat bütövlükdə tədqiqat üçün mühüm əhəmiyyət daşısa da, problemi həll etmək iqtidarında deyil. Intuisiyanın təsnifatı problemi ümumiyyətlə tədqiqat zamanı meydana çıxan ən çətin məqamlardandır. Bu onunla izah edilir ki, təsnifləşdirmə əməliyyatına məruz qalan predmetin özü heç də formal təsnifat üçün zəruri olan qaydalara tabe olmur.

Ehtimal ki, bu üsul intuisiya problemi üçün də faydalıdır. Bunqenin təsnifatı qeyd etdiyimiz təsnifat üsullarından heç birinə uyğun gəlmir. Çünki onun təsnifatının əsasında elmi idrak prosesində iştirak edən müxtəlif intuisiyaların növ bölgüsü durur. Qeyd edək ki, A.S. Karminin və E.P. Xaykinin elmdə yaradıcı intuisiyanın mahiyyətinə dair fikirlərini daha uğurlu hesab etmək olar. Həmin müəlliflər intuisiyanın iki formasını fərqləndirirlər: «Konseptual» və «eydetik». Konseptual intuisiya - əvvəllər mövcud olan əyani obrazların əsasında yeni anlayşıların formalaşması prosesidir. Eydetik intuisiya isə əvvəllər mövcud olan anlayışların əsasında yeni əyani obrazların yaradılması prosesidir. Əlbəttə, bu bölgü xüsusilə qnoseoloji təhlil üçün nəzərdə tutulub və özündə yalnız şərti bölgünü deyil, eləcə də spesifik fəaliyyət sistemini əks etdirir. Bu sxem yalnız idraki proses forması kimi intuisiyanın mövcudluğu faktı kimi başa düşülməlidir, həmçinin onun elmi idrak sferasındakı təzahürü baxımdan təhlil edilməlidir. Bununla yanaşı, intuisiya insan beyninin xüsusi fəaliyyət mexanizminin nəticəsi kimi izah olunmalıdır [5, c.58].

**Nəticə**. Hər bir formal təsnifat hər şeydən əvvəl bir qrup predmetin digər qrup predmetlərdən dəqiq və kəskin şəkildə təcrid olunmasını nəzərdə tutur. Aydın məsələdir ki, intuisiya formal təsnifata məruz qala bilməz. Intuisiyanın müxtəlif növlərinin oxşar və fərqli cəhətlərini dəqiq müəyyənləşdirmək, bu baxımdan, qeyri-mümkündür; hər şey o qədər bir-birinə nüfuz edir ki. Lakin formal təsnifatlardan fərqli olaraq məzmunlu təsnifat dialektik prinsiplərə əsaslanır. Məzmunlu təsnifatlarda təsnif edilən predmet qrupları arasındakı daxili qanunauyğunluğu aydınlaşdırmağa üstünlük verilir. Məzmunlu təsniat təbii təsnifata uyğun gəlir. Axırıncılar təsnif edilən predmetin bütün əlamətlərinin cəmini nəzərə almaqla qurulur.

ƏDƏBİYYAT SİYAHISI:

1. *Creativity: Development and potential, New York. 1964, 422 p.*
2. *Хюбнер К. Критика научного разума / Пер. с нем. М.: 1994, 326 с.*
3. *Бабушкин В.У. О природе философского знания. М.: Мысль, 200, 211с.*
4. *Интуиция, логика, творчество/ Под ред. М.И.Панова. Москва: Наука, 1987, 175 с.*
5. *Кармин, А.С., Хайкин, Е.П. Творческая интуиция в науке М.: Наука, 1971, 248 с.*
6. *Спиркин А.Г. Основы философии: Учеб. Пособие для вузов. М.: Политиздат, 1988, 592 с.*
7. *Шелер М. Избранные произведения. М.: Гнозис, 1994, 413 с.*
8. *Бунге М. Интуиция и наука. М.: Прогресс, 1967, 187 с.*

*The article was received by the editors 04.10.2020*
*The article was accepted for publication 27.11.2020*